Respublika .- 2025.- 20 iyul (№ 148).




# 150 ildə formalaşan və inkişaf edən milli mətbuatımız

*Azərbaycanda milli mətbuatın yaranmasının 150 ili tamam olur. Milli mətbuatın zəngin inkişaf yolu ictimai fikir tariximizin mühüm hissəsidir. 150 il bundan öncə alim, pedaqoq, ictimai xadim Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə əsası qoyulan mətbuatımız milli kimliyimizin formalaşmasında misilsiz rol oynamışdır.*

Bu yubiley təkcə mətbuat tariximizin deyil, həm də xalqımızın azad sözə, ictimai şüurun formalaşmasında medianın roluna verdiyi yüksək qiymətin göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 25 aprel tarixli "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı bu sahəyə dövlət səviyyəsində verilən diqqətin təcəssümüdür. Bununla yanaşı, cənab Prezidentin 2024-cü il 28 dekabr tarixli digər Sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Milli mətbuatımızın 150-ci ildönümünün məhz "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi konstitusion hüquq və azadlıqların, o cümlədən fikir və söz azadlığının, məlumat azadlığının təmini sahəsində həyata keçirilən islahatlara nəzər yetirilməsi və bu istiqamətdə gələcək fəaliyyət istiqamətlərinin müəyyən edilməsi baxımından da əhəmiyyət kəsb edir.

Müasir dünyanın reallıqları - qlobal münaqişələr, geosiyasi gərginliklər və informasiya mübarizəsinin dərinləşdiyi bir dövrdə media ictimai şüurun formalaşdırıcısı kimi mühüm missiyanı yerinə yetirir. Təəssüf ki, bəzi ölkələrə məxsus media qurumlarında müşahidə olunan ikili standartlar, qərəzli yanaşmalar, məsələlərin məqsədli olaraq təhrif olunması fundamental insan hüquq və azadlıqlarının pozulmasına, ayrı-seçkilik hallarının artmasına səbəb olur. Belə mürəkkəb informasiya mühitində media nümayəndələrinin insan hüquq və azadlıqlarına hörmətlə yanaşması, peşə etikasına sadiqliyi, məlumatları hazırlayarkən təhrifə yol verməmələri olduqca vacibdir.

Tarix sübut edir ki, mətbuat azad olmayan yerdə nə hüquqi dövlət, nə də azad cəmiyyət qurmaq mümkündür. Ulu Öndər Heydər Əliyev məhz bu prinsipə əsaslanaraq 1998-ci ildə "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzalayaraq ölkəmizdə mətbuat üzərində senzuranı ləğv etdi. Bu addım media nümayəndələrinin hüquq və azadlıqlarının müdafiəsi və azad mətbuatın formalaşması baxımından dönüş nöqtəsi oldu.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə medianın inkişafı, jurnalistlərin sosial müdafiəsi və informasiya mühitinin şəffaflaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, aparılan islahatlar nəticəsində məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirmək məqsədilə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Xüsusilə media sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, Medianın İnkişafı Agentliyinin yaradılması, media subyektlərinə və jurnalistlərə dövlət dəstəyi mexanizmlərinin tətbiqi, informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarının genişləndirilməsi bu sahədə görülən işlərin nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə əsasən, hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı var və bu, qanunvericiliklə qorunur. Eyni zamanda, ölkəmiz söz və informasiya azadlığının müdafiə altına alan və milli qanunvericiliyin tərkib hissəsi olan beynəlxalq müqavilələrin iştirakçısıdır.

Ölkəmizdə hüquqi dövlət quruculuğu və liberal cəmiyyətin formalaşdırılması kontekstində fikir və söz azadlığı yalnız hüquqi mexanizm deyil, həm də demokratik institutların dayanıqlılığını təmin edən əsas dəyərlərdən biridir. Bu dəyərlərin qorunması cəmiyyətin inkişafı və insan hüquqlarının təmin olunmasında müstəsna rol oynayır.

Söz, fikir və məlumat azadlıqlarının təmin edilməsi, eyni zamanda, peşəkar və məsuliyyətli medianın inkişafına dəstək göstərilməsi Ombudsmanın əsas fəaliyyət istiqamətlərindəndir. Bu sahədə üzərimizə böyük məsuliyyət düşür və bu proses daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. Belə ki, Ombudsman həmin Qanunun tələblərinin pozulması halları ilə bağlı daxil olmuş şikayətləri səlahiyyətləri çərçivəsində operativ şəkildə araşdırır, pozuntu hallarının aradan qaldırılması üçün müvafiq səlahiyyətli qurumlara sorğular göndərir, müraciətlər üzrə təhlillər aparır və informasiya sorğularını cavablandırır. Eyni zamanda media subyektləri ilə əməkdaşlıq fəaliyyətimizin ayrılmaz tərkib hissəsidir. İnsan hüquqlarının qorunması istiqamətində görülən işlər, apardığımız monitorinqlər, eləcə də ictimaiyyətə açıqlanan hesabatlarımız mediada işıqlandırılır və bu, şəffaflığın və ictimai nəzarətin artırılmasına xidmət edir. Bununla yanaşı, biz beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində informasiya əldə etmək hüququnun müdafiəsi sahəsində ən yaxşı təcrübələrin Azərbaycanda tətbiqinə də xüsusi önəm veririk.

Qeyd etmək istərdim ki, media nümayəndələrinin insan hüquqları sahəsində biliklərinin artırılmasına dəstək məqsədilə təşəbbüsümlə hüquqi maarifləndirmə tədbirləri təşkil edilir, habelə tərəfdaş qurumlarla birgə müvafiq mövzularda keçirilən seminarlarda media nümayəndələrinin iştirakı təmin olunur. Həmçinin Beynəlxalq İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının ildönümü münasibətilə hər il 10 dekabr tarixində ənənəvi olaraq tərəfimdən insan hüquqları sahəsində aktual mövzuları əhatə edən jurnalist yazı müsabiqələri elan edilir ki, bu da insan hüquqlarının təbliği, cəmiyyətdə bu sahəyə marağın artırılması, eləcə də media nümayəndələrinin hüquqi biliklərinin və peşəkar fəaliyyətlərinin dəstəklənməsinə öz töhfəsini verir.

Bu əlamətdar gündə peşə fəaliyyətini icra edərkən həyatlarını itirmiş jurnalistlərimizi hörmətlə anır, media nümayəndələrini milli mətbuatımızın 150 illiyi münasibətilə ürəkdən təbrik edir, insan hüquqlarının qorunması, hüquqi maarifləndirmə və şəffaf cəmiyyətin qurulması istiqamətində göstərdikləri dəyərli fəaliyyətə görə onlara təşəkkürümü bildirirəm.

Əminəm ki, azad, məsuliyyətli və peşəkar mətbuatımız bundan sonra da demokratik cəmiyyətin inkişafına və insan hüquqlarının təmininə layiqli töhfələr verməyə davam edəcək. ■



**Səbinə ƏLİYEVA,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).**